# Xalqı birliyə, həmrəyliyə səsləyən yallılarımız



*Xalqın mənsub olduğu dəyərlər onun tarixinin, qədimliyinin, kimliyinin təzahürüdür. Əslində onun hansı ruhda olduğunu ehtiva edir. Azərbaycan xalqı milli-mənəvi dəyərlər baxımından olduqca zəngindir. Eyni zamanda xoş əhvali-ruhiyyəli, ovqatlıdır. Bütün bunlar millətin hansı amal, məqsəd və niyyətdə olduğundan xəbər verir.*

Xalqımız hər zaman dünyaya sülh, barışıq diləyini əməli addımları ilə də sübut edir. Çünki Azərbaycan milləti cahanı xoşbəxt görmək istəyir. Xoşbəxtlik üçün isə çox şey tələb olunmur, yetər ki, insan bunu istəsin. Adi bir sözdən, xəfif təbəssümdən, sadə jestdən də xoşbəxt olmaq mümkündür. Bunun əsas yollarından biri də ailənin bünövrəsindən, təməl daşlarından olan toydur. Həmin gün iki gəncin xoşbəxt həyata qədəm qoyması ilə yanaşı, onlarla məclis əhlinin əhvalı yüksəlir, ruhu dincəlir, sevinir. Bəs toylara yaraşıq verən nədir? Əlbəttə ki, insanlara xoş əhval bəxş edən musiqilərimiz, rəqslərimiz. Necə ki, "Bəyin oğurlanması" filmində kolxoz sədri Hidayət müəllim deyir: "Ayə, bu toydu. Toyda neynəyərlər?". Əlbəttə, oynayarlar. Oynamaq üçün isə yaxşı rəqslər olmalıdır.

Yaşı minillərə dayanan, Dədə Qorqud qopuzundan bəhrələnib, şaxələnən musiqimizin "Yallı" rəqs növünün öz xüsusiyyət və məziyyətləri var. Hər bölgənin, ərazinin demək olar ki, öz yallısı mövcuddur. Sözsüz ki, xalqımıza məxsus şuxluq, xoş əhvali-ruhiyyə onun rəqslərinə də sirayət edir. Qədim rəqslərimizin hər birinin isə öz məna və mahiyyəti var. Azərbaycan xalqı əsrlər boyu rəngarəngliyi və dolğunluğu ilə insanı valeh edən rəqslər yaratmışdır. Bunlara tək, qoşa, kütləvi ifa edilən rəqsləri misal çəkmək olar.



Məsələn, rəqs sənətimizin tarixi digər musiqilərdən daha qədim hesab edilir. İnsanlar ibtidai icma quruluşunun ilk mərhələlərində əllərini bir-birinə vuraraq rəqsə uyğun səslər çıxararaq ifa etmişlər. Bu, insanlar ova getdikləri zaman da yerinə yetirilərmiş. Onların sübutu kimi Qobustan və Gəmiqayadakı qayaüstü təsvirləri misal çəkmək olar. Qayaüstü rəsmlər xalqımızın zəngin incəsənət irsi ilə yanaşı, musiqi və rəqs mədəniyyətinin inkişaf tarixini öyrənmək üçün böyük əhəmiyyətə malikdir. Həmin ərazilərdə olan rəsmlərdə əsasən rəqsin yallı forması təsvir edilmişdi. Xalq rəqslərindən olan yallıların mənşəyi və yaşı dəqiq bilinmir. Doğrudur, bir çox xalqlarda yallıya bənzər rəqslər var, lakin bu, yalnız türk xalqlarının rəqs sistemi hesab edilir. Həmrəylik rəmzi olan yallılar cərgəyə düzülərək dəstə ilə ifa olunan kütləvi rəqs növüdür.

Yallılar qədim türk musiqi janrı kimi üç yerə bölünür: yalnız musiqili, musiqili və vokal (səsli), bir də (musiqisiz ifa olunan) dil yallıları. Dil yallıları musiqisiz ifa olunmaqla ən qədim oyun növü hesab edilir. Çünki bunlar musiqi alətlərinin mövcud olmadığı dövrlərdə yaranmışdır. Təqribən 10 min il əvvəl yaranan yallılar zamanla bir neçə adla - "yollu", "yelli" və nəhayət isə dövrümüzə "yallı" kimi gəlib çatmışdır. Vokal yallıları dediyimiz rəqs növünü adətən oxuya-oxuya oynayırlar. Bunlar el şənliklərində, toy-düyünlərdə daha çox istifadə edilən "Haxışta", "Gülümey" kimi musiqilərdir. Yallılar milli-mənəvi dəyərlərdən biri kimi nəsildən-nəslə ötürülməklə yaşadılır. Xüsusi günlərdə, əsasən də Novruz bayramı ərəfəsində tonqal ətrafında yallı getmək ənənə halını alıb. "Atəşdə oyun" adlandırılan bu yallı bəşər sivilizasiyasının ilkinliyinin, ibtidai icma dövrünün yadigarı kimi qorunur.




Mahiyyət baxımından yallılar adi rəqs deyil. İlk dövrlərdə bu, əsasən ibtidai insanların, sonralar isə tayfa, millət və xalqların birlik, bərabərlik rəmzi kimi qiymətləndirilib. Azərbaycan xalqının dünəninin, bu gününün, milli adət-ənənələrinin ifadəsidir. Min illərin o tayından formalaşan, öz qədimliyini, məna və dəyərini saxlayaraq bu günümüzə gəlib çatan yallılar həm də zəngin mədəniyyətimizin bir hissəsidir.

Azərbaycanda hər bölgənin öz yallısı var. Qədim Naxçıvan isə istər Qafqaz, istər Yaxın və Orta Şərq, istərsə də Avropa xalqları arasında yallının vətəni kimi tanınıb. Ulu öndər Heydər Əliyev yallıları "Naxçıvanın tacı" adlandırıb. Həmçinin yallılara Şərurun qədimlik rəmzi, Oğuz möhürü də deyirlər. Dahi bəstəkar Üzeyir Hacıbəyli isə Şəruru Azərbaycan folklor mədəniyyətinin beşiyi hesab edib. Rəqslərimizə gözəllik, belə demək mümkünsə şıltaqlıq qatan, öz ifası ilə dünyanı dolaşan Xalq artisti Əminə Dilbazi isə xatirələrində yazırdı ki, "Yallı mənbəyimiz Naxçıvanda, Şərur torpağındadır".

Əsasən Şərurda daha çox təkmilləşən yallıların 100-dən çox növü olub. Hazırda isə zamanımıza yalnız 20 növü gəlib çatıb. "Çolağı", "Üç addım", "Köçəri", "Dönə Yallı", "Qazqazı", "El Yallısı", "İki ayaq", "Qala-dan-qalaya", "Şəranı" və s.

Qədim ənənələr üzərində qurulmuş yallılarımız Azərbaycanın digər bölgələrində - Qərbi Azərbaycan, Kəlbəcər, Laçın və Qarabağın bir çox ərazilərində, eyni zamanda Şəki zonasında da yayılıb. Təkcə Qərbi Azərbaycanda 45 adda yallı növü olub. Əsasən Dərələyəz, Vedi, Ağbaba və başqa mahallarda yayılan yallılarımız bu gün də soydaşlarımız tərəfindən yaşadılır. Bu baxımdan, Qərbi Azərbaycanın musiqi folklorunda xüsusi yeri olan halaylar, yallılar xalqımızın mədəni irsi olaraq yaşayır. Yaxın gələcəkdə yenə də qədim yurd yerlərimizdə olan Qərbi Azərbaycan ellərini halay havaları, yallılar riqqətə gətirəcək, yenə də soydaşlarımız əllikcə yallı gedəcəklər.

Milli musiqimizin, qədim mədəniyyətimizin ayrılmaz hissəsi olan bu rəqs növü 2018-ci ilin 26 noyabr - 1 dekabr tarixlərində Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyasında "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" bu təşkilatın Təcili Qorunma Siyahısına daxil edilib.

"Yallı" xalqı sülhə səsləyən musiqi, möhtəşəm ritmik ahənglə böyük emosional təsirə malikdir. Yallı təkcə musiqi və rəqs növü deyil, qədim türk tarixinin möhürü, azərbaycançılıq simvoludur.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**